**DOI: https://doi.org/10.59849/2957-3882.2024.2.104**
**UOT: 32**

# "ƏSRİN MÜQAVİLƏSİ"NİN AZƏRBAYCANIN SOSİAL-MƏDƏNİ VƏ İQTİSADİ İNKİŞAFINDA ROLU

**Elman NOVRUZOV***

***Açar sözlər:*** *"Əsrin müqaviləsi", neft, inkişaf, investisiya, Heydər Əliyev*

## XÜLASƏ

Qədim neft ölkəsi olan Azərbaycan Sovet İttifaqının dağılması ilə öz müstəqilliyini bərpa edəndə əksər neft quyuları boşaldığı və ya yarasız vəziyyətdə olduğu üçün özünün neft sərvətlərindən lazımı səviyyədə istifadə edə bilmirdi. Eyni zamanda bütün Sovet respublikaları kimi iqtisadi tənəzzül yaşayan Azərbaycan öz neftini çıxarmaq üçün lazımi imkanlara da malik deyildir. Belə çətin şəraitdə Azərbaycanın yeganə yolu xarici sərmayə cəlb etməklə ölkədə neft yataqlarının işlənilməsinə və neftin çıxarılmasına, eləcə də xarici bazara çatdırılmasına şərait yaratmaq idi. Lakin yenicə müstəqil olan ölkəyə sərmayə cəlb etmək də çətin idi. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan böyük neft şirkətlərini Azərbaycanın neft sənayesinə sərmayə yatırmağa inandıra bildi. Nəhayət bu istiqamətdə "Əsrin Müqaviləsi" imzalandı. Sentyabrın 20-də Azərbaycanın xarici dövlətlərlə bağladığı "Əsrin Müqaviləsi" ölkənin öz sərvətlərindən istifadəsinə şərait yaratmaqla böyük sosial-mədəni və iqtisadi inkişafa yol açdı. "Əsrin müqaviləsi"ndən sonra ölkəyə gələn neft pullarının müxtəlif sahələrə yönəldilməsi yeni iş yerləri açılmasına, müxtəlif infrastruktur layihələrinin icra edilməsinə, əhalinin rifahının yaxşılaşdırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına şərait yaratdı. Eyni zamanda neft gəlirləri ölkənin ordu quruculuğu, müdafiə xərclərinin artırılması və nəhayət ölkənin işğal olunmuş ərazilərinin qaytarılmasında müstəsna rol oynamışdır. "Əsrin müqaviləsi"ndən ölkəyə gələn neft gəlirləri olmasaydı işğaldan azad edilmiş ərazilərin bərpası da mümkün olmazdı. Bir sözlə, "Əsrin müqaviləsi" Azərbaycanın çox böyük problemlərinin həllinə rəvac verməklə, ölkəmizin hərtərəfli inkişafına zəmin yaratmışdır.

## Giriş

Azərbaycan hələ bir neçə yüz il öncədən yeraltı sərvətləri, xüsusilə neftindən istifadə etməklə zəngin ölkəyə çevrilmişdi. Lakin Sovet İttifaqı dağıldığı ərəfədə Azərbaycanın mövcud neft quyuları boşalmış və yeni yataqların istismarı üçün isə nə lazımi sərmayə, nə də daha modern texnologiya mövcud idi. Ona görə də, Azərbaycan bu sərvətindən ölkənin inkişafı üçün lazımi səviyyədə istifadə edə bilmirdi. Nəhayət ümumi milli lider Heydər Əliyevin "Əsrin müqaviləsi"ni bağlaması ilə Azərbaycanın öz neft ehtiyatı hesabına varlanması və neft gəlirlərini iqtisadiyyatın müxtəlif sahələrinə yönəltməklə iqtisadi inkişafa nail oldu.

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, elmi işçi.*
*Email: elman-77@mail.ru*

**“Əsrin müqaviləsi” və onun Azərbaycanın iqtisadi inkişafına təsiri**

Sovet İttifaqının dağılması prosesində bütün Sovet respublikalarında olduğu kimi, Azərbaycanda da ciddi sosial-iqtisadi və mədəni tənəzzül yaşandı. Bu tənəzzül prosesi 1991-ci ildə müstəqilliyini yenicə bərpa etməkdə olan Azərbaycanda erməni təcavüzkarının Qarabağ və ətraf ərazilərə hücumu və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi ilə daha da kəskinləşdi. SSRİ-nin dağılması ilə bütün respublikalarda olduğu kimi, Azərbaycanda da iqtisadiyyatın ardıcıl surətdə zəifləməsi özünü ümumi daxili məhsul istehsalının ildən-ilə kəskin azalmasında qabarıq şəkildə büruzə verirdi. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ümumi daxili məhsulun həcmi ildə 20 faizdən çox azalırdı. Əgər 1991-ci ildə bu mühüm göstərici 1990-cı ilin səviyyəsinə nisbətən 99,3% təşkil etmişdisə, sonrakı illərdə azalma tempi sürətlənmiş və artıq 1992-ci ildə ümumi daxili məhsul əvvəlki illə müqayisədə 77,4%, 1993-cü ildə 76,9%, 1994-cü ildə isə 80,3% həddinə düşmüşdü (Mehdiyev Ə., 2014, 18-19). Üstəlik, 1993-cü ildə Azərbaycan ciddi parçalanma, vətəndaş müharibəsi və müstəqilliyini itirmə təhlükəsi ilə qarşılaşdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın dəvəti ilə Azərbaycanda yenidən hakimiyyətə qayıdışı və ölkədə sabitliyi bərpa etməsi ilə qeyd olunan təhlükəli prosesin qarşısı alındı. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasında hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərpa edildi, sosial-mədəni və iqtisadi inkişafı sürətləndirmək üçün isə Azərbaycanın yeraltı sərvətlərinin çıxarılması qarşıya məqsəd qoyuldu. Lakin həmin dövrdə Azərbaycanın maliyyə resurslarının məhdud olması qarşıya qoyulmuş strateji məqsədlərin reallaşmasını qeyri-mümkün edirdi. Belə vəziyyətdə ölkədə sosial-iqtisadi inkişaf üçün xarici investisiyaların cəzb edilməsi zəruri idi. Bunları nəzərə alan ümummilli lider Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək istismarını prioritet məsələ kimi önə çəkdi, Azərbaycanın yeni neft strategiyasını işləyib hazırladı. Bu isə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” ilə gerçəkləşdi. “Müqavilədə dünyanın 7 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) 11 neft şirkəti (“Amoco”, BP, “McDermott”, “Unocal”, ARDNŞ, “LUKoil”, “Statoil”, “Türkiye Petrolleri”, “Pennzoil”, “Ramco”, “Delta Nimir”) iştirak edib” (Şaban İ., 2023, 25). Bununla da müstəqil Azərbaycanın gələcək inkişafına ciddi təkan verən neft strategiyası və doktrinasının əsası qoyuldu.

“Əsrin müqaviləsi”nin imzalanması və müqavilənin icrası prosesində belə Azərbaycana yüksək miqdarda sərmayə yatırıldı. Belə ki, “Əsrin müqaviləsi”nin həyata keçirildiyi 3 il müddətində “Azərbaycana qoyulmuş xarici sərmayənin həcmi artmış, ölkədə fəaliyyətə başlamış əcnəbi şirkətlərin sırası genişlənmişdi. Bu isə Azərbaycanın iqtisadiyyatına müsbət təsir göstərmiş yerli müəssisələrin fəaliyyətini canlandırmışdı. ABƏŞ-in verdiyi məlumata görə, üç il ərzində konsorsium Azərbaycanda 1 milyard dollar sərmayə yatırmışdır” (Mehdiyev Ə., 2014, 109). Sözsüz ki, ölkəyə xarici sərmayənin cəzbi yeni iş yerlərinin açılması və sosial-iqtisadi inkişafa az da olsa təsir göstərirdi. Lakin “Əsrin müqaviləsi”nin icrası və neftin çıxarılması və satışı ilə Azərbaycana neft gəlirləri axmağa başladı. Bunun ardınca “Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması, məqsədyönlü şəkildə istifadəsini təmin etmək və neftdən gələn gəlirlərin gələcək nəsillər arasında ədalətli bölgüsü, onlardan səmərəli və məqsədəmüvafiq şəkildə yararlanılması məqsədi ilə 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Dövlət Neft Fondu yaradıldı” (Vəliyeva K., 2016, 19). Bu fondun yaradılması ilə neft gəlirləri həmin fonda toplanıb, müxtəlif sahələr üçün ayrılmağa başladı. Bu vasitə ilə ölkədə irili-xırdalı xeyli layihələr həyata keçirildi. Çoxsaylı layihələrin icrası ölkədə sosial-iqtisadi inkişafa təkan verdi.

Azərbaycanın neftdən gələn gəlirləri artdıqca sosial-iqtisadi, infrastruktur və s. layihələrin icrasına da Neft Fondunda toplanan neft pullarından vəsaitin ayrılması artırdı. Nəticədə günlər, aylar keçdikcə “Əsrin müqaviləsi”nin nəticələri hər bir Azərbaycan vətəndaşın həyatında hiss

olunurdu. Xaos, qanunların pozuntusu illərində dağıdılmış, viran qoyulmuş ölkə iqtisadiyyatında 1996-ci ildə ilk dəfə olaraq inflyasiya kimi dəhşətli bir hal artıq tamam aradan qaldırılmışdı (Camalov Y., 2004, s. 87).

Eyni zamanda, Azərbaycan dövləti "Əsrin müqaviləsi" ilə Azərbaycanın artan gəlirlərinin bir hissəsini də Azərbaycanın gələcək nəsli üçün ayırmağı qarşıya məqsəd qoymuşdu. Bu istiqamətdə neft gəlirlərinin toplaşdığı Azərbaycan Neft Fondunun "önəmli vəzifələrindən biri isə neft gəlirlərinin bir hissəsini gələcək nəsillərə saxlamaqdır. "Neft və qaz gəlirlərinin uzun müddətli istifadəsi strategiyası" adlı sənəddə neft gəlirlərinin ən pik səviyyəyə çatdığı illərdə 25 faizinin gələcək nəsillərə saxlanılması göstərilir" (Vəliyeva K., 2016, 21).

"Əsrin müqaviləsi"nin icrası və neft gəlirlərinin artması nəticəsində yaranan sosial-iqtisadi inkişafla yanaşı həm də Azərbaycanın valyuta ehtiyatları artmağa başladı. Əgər 1994-cü ildə Azərbaycanın valyuta ehtiyatları minimum həddə idisə, 2013-cü ilin yekununa əsasən, həmin ehtiyatların miqdarı artıq 50 milyard dollardır (Qasımov E., 2014). Hazırda isə ölkəmizdə gedən bütün quruculuq işləri, torpaqlarımızın azad edilməsi, Azərbaycan Ordusuna müasir silahların alınması, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinə xərclənən vəsaitlərə baxmayaraq, 2024-cü il yanvarın 1-nə olan statistikaya görə, ölkəmizin valyuta ehtiyatları 67 milyard 683 milyon dollar təşkil edib. Bunun 83 faizi və yaxud 56 milyard 70 milyon dolları Azərbaycan Dövlət Neft Fondunun (ARDNF), 17 faizi və yaxud 11 milyard 613 milyon dolları isə Azərbaycan Mərkəzi Bankının (AMB) payına düşüb (https://xalqqazeti.az).

**"Əsrin müqaviləsi"nin Azərbaycanın sosial-mədəni inkişafında təsiri**

Azərbaycanın "Əsrin müqaviləsi" ilə gəlirlərinin artması təkcə sosial-iqtisadi inkişaf və valyuta ehtiyatlarının artırılmasına deyil, həm də mədəni inkişafa, o cümlədən, insan kapitalına sərf edilməyə yönəldildi. Azərbaycan Prezidenti İlham Əliyevin insan kapitalına və ümumiyyətlə ölkədə mütəxəssis kadrların yetişdirilməsinə verdiyi önəm nəticəsində neft pullarının bir hissəsinin insan kapitalına sərf edildi. 2007-2015-ci illərdə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın reallaşması nəticəsində Azərbaycan müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaratmışdır. Sözsüz ki, bu proqram neft gəlirləri hesabına həyata keçirilib. Azərbaycan Prezidenti cənab İlham Əliyev də daim bu məsələni diqqətdə saxlayaraq demişdi ki, "qara qızıl"ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir (https://www.yeniazerbaycan.com). Bu sahədə 01.01.2016-cı il tarixinə olan məlumatlara görə, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı çərçivəsində 3283 nəfərin təhsili ilə bağlı xərclər Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilmişdir. Bu tələbələrin sayı ümumilikdə 134 nəfər olmaqla, 128 nəfəri II dərəcəli, 6 nəfəri isə III dərəcəli təhsil almışdır (Vəliyeva K., 2016, 21). Eyni zamanda, 2019-2023-cü illər üçün "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın ( Xəlilova X., 2021, 440) icrası nəticəsində hazırda ölkəmizdə müxtəlif sahələrdə bacarıqlı kadrlar yetişdirilib, o cümlədən, tibb sahəsində xarici ölkələrdə təhsil alıb gəlmiş mütəxəssis həkimlər fəaliyyət göstərir. Ümumiyyətlə həm respublika, həm də xarici ölkələrin nüfuzlu elm və təhsil müəssisələrində olan Azərbaycanın peşəkar, gənc kadr ordusu müasir dünyamızın elmi, texniki və mədəni tərəqqisinə geniş nüfuz etmişdir. Yeni müasir idarəetmə texnologiyalarına yiyələnən bu gənclər mövcud inkişaf potensialının gücləndirilməsi baxımından ölkəmizin qızıl fondu hesab edilə bilərlər (Əhmədova K., 2020, 158).

Azərbaycanda neft gəlirlərinin başqa sahələrin inkişafına xərclənməsi daim diqqət mərkəzinə olmuşdur. Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişaf konsepsiyasının

formalaşmasının və şaxələndirilməsinin baş tutması üçün çoxlu sayda sərəncamlar, fərmanlar vermiş, bu sahənin inkişaf prosesləri daim ciddi səviyyələrdə müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur. Prezident İlham Əliyev bildirmişdir ki, qeyri-neft sektorunun inkişafı və kənd təsərrüfatının inkişafı Azərbaycanın gələcəyini müəyyən edən amillərdir (Şəkərəliyev A., Şəkərəliyev Q., 2016, 51).

"Əsrin müqaviləsi"nin icrası və Azərbaycanın neft gəlirlərinin artması Azərbaycanda sosial-iqtisadi vəziyyətə yaxşı təsir göstərməklə, əhalinin rifah səviyyəsini də yaxşılaşdırmışdır. Sözsüz ki, neft gəlirlərinin artması və yeni-yeni layihələrin icrası ilə ölkədə çox sayda yeni iş yerləri açıldı. Bu da işsizlik və yoxsulluq probleminin həllinə ciddi təsir göstərdi. Ölkədə müstəqilliyin ilk illərində iqtisadi tənəzzül nəticəsində yoxsulluq səviyyəsi olduqca yüksək idi. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında (https://e-qanun.az) sərəncam imzaladı. Artıq 2014-cü il üçün yoxsulluğun səviyyəsi 5,3 faiz oldu. Sözsüz ki, bu da ölkədə əhalinin rifah və həyat şəraitinin yaxşılaşmasından xəbər verirdi. BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 34 pillə irəliləyərək, 2010-cu ildə 67-ci yerdə qərarlaşmışdır. Ölkəmiz 2000-2010-cu illər üzrə insan inkişafı indeksinin orta illik artım tempinə görə MDB məkanında birinci yerə layiq görülmüş və "orta insan inkişafı" ölkələri qrupundan "yüksək insan inkişafı" qrupuna kimi yüksəlmişdir (Aslanova M., 2021, 75). Azərbaycan dövləti neft gəlirlərinin bir hissəsini də aztəminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına xərcləmişdir. Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz bəhrəsini verməyə başlayan andan ilk vəsait qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilərək Azərbaycanda mövcud olmuş 12 çadır düşərgəsindən Biləsuvar rayonu ərazisindəki 5-i 2003-cü ildə, Bərdə və Ağcabədi rayonlarındakı 4-ü 2006-cı ildə və Saatlı, Sabirabad rayonları ərazisindəki 3-ü isə 2007-ci ildə ləğv edilmişdir (https://idp.gov.az). Azərbaycan Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin icrası çərçivəsində 8130000 manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 150 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 90 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə Neft Fondundan 61,5 milyon manat vəsait ayrılıb (Vəliyeva K., 2016, 21).

"Əsrin müqaviləsi"nin icrası ilə Azərbaycana gələn neft pulları təkcə ölkənin qısa müddətdə varlanmasına hesablanmamışdır. Neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsini, qeyri-neft sektorunda yeni istehsal müəssisələrinin açılması yolu ilə yeni iş yerlərinin yaradılmasını, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin daha da gücləndirilməsini özünün iqtisadi siyasətində prioritet vəzifə kimi nəzərdən keçirir. Neft hasilatı Azərbaycan üçün son məqsəd deyildir, iqtisadiyyatı inkişaf etdirmək üçün bir vasitədir (Şəkərəliyev A., Şəkərəliyev Q., 2016, 28).

"Əsrin müqaviləsi" ilə gələn neft pulları təkcə Bakının deyil, Azərbaycanın regionlarının da sosial-mədəni və iqtisadi inkişafı və əhalinin rifahının artırılmasında böyük rol oynamışdı. Qəbul olunan dövlət proqramları, o cümlədən, dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri və 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı

illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır (https://azerbaijan.az). Həmçinin "Əsrin müqaviləsi" hesabına bir sıra digər proqramlar, o cümlədən, Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı, 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015) Dövlət Proqramı, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası və digər layihə, proqramlar  Azərbaycanın hərtərəfli inkişafına xidmət etmişdir (Vəliyeva K., 2016, 22-23).

"Əsrin müqaviləsi" sosial-mədəni və iqtisadi inkişafa yol açmaqla yanaşı həmçinin Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsində və bərpasında da böyük rol oynamışdır. Sözsüz ki, 1994-cü ildən bu yana ordu quruculuğu, Azərbaycanın müdafiə xərclərinin artırılması və Azərbaycan Ordusunu müasir silah və texnika ilə təmin etmək Ordumuzun qələbəsinə yol açmışdır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun hesabatına görə, 2012-ci ildə dünyada hərbi büdcəsini ən çox artıran ölkə Azərbaycan olub. 2022-ci ilin dövlət büdcəsində müdafiə xərcləri üçün 5,1 milyard manat ayrılıb. Azərbaycanın müdafiə məqsədləri xərcləri Ermənistanla müqayisədə təxminən 4 dəfə artıqdır (https://az.wikipedia.org). Beləliklə, demək olar ki, "Əsrin müqaviləsi" Azərbaycanın bugünkü uğurlarının, eləcə də sosial-mədəni və iqtisadi inkişafının əsas bünövrəsini təşkil edib.

**Nəticə**

Sovet İttifaqının dağılmasından sonra maliyyə imkanlarının zəif olması üzündən hər cəhətdən tənəzzül yaşayan Azərbaycan, ümumi milli lider Heydər Əliyevin 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalaması ilə öz yeraltı sərvəti olan neftdən səmərəli istifadə etməsi üçün lazımi şərait yarandı. Bunun nəticəsində ölkəyə gələn neft gəlirlərinin digər sahələrə yönləndirilməsi Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına böyük təkan verdi. Ümumiyyətlə demək olar ki, sırf "Əsrin müqaviləsi" ilə ölkəyə axan neft pulları çoxsaylı digər layihələrin də icrasına yol açmaqla Azərbaycanın hərtərəfli uğurlarına şərait yaratdı. Neft gəlirlərinin insan kapitalına çevrilməsi istiqamətində ölkədə çox sayda tələbə xaricdə təhsil alıb, mütəxəssis kimi ölkəyə qayıtdı. Bu da ölkənin elmi inkişafında böyük rol oynadı. "Əsrin müqaviləsi" ilə ölkəyə gələn neft pulları hesabına ölkənin iqtisadi gücü artdı və bunun ardınca Azərbaycan dövləti müasir və inkişaf etmiş hərbi texnika ilə Azərbaycan Ordusunu gücləndirdi. Nəticədə hərtərəfli güclənən Azərbaycan 30 il işğalda qalan ərazilərini də azad etməyə müvəffəq oldu. Hazırda isə sırf "Əsrin müqaviləsi" ilə iqtisadi gücünü artıran Azərbaycan işğaldan azad etdiyi ərazilərini bərpa edir.

## ƏDƏBİYYAT

Aslanova M. Balabəyova N. Azərbaycanın iqtisadi inkişaf strategiyasında Heydər, Əliyev ideyaları "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş respublika elmi-praktiki konfransın materialları, Bakı, UNEC 2021.

Camalov Yavər. Heydər Əliyevin neft strategiyası davam edir. "Qismət" nəşriyyatı, Bakı, 2004.

Əhmədova K. İnsana yönəlik investisiyaların geri dönüş səviyyəsi və dünya ölkələrindəki müqayisəli təhlili, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri elmi əsərlər toplusu, XX buraxılış, Bakı, 2020, s.168.

Şaban İ. "Azəri-Çıraq-Günəşli". Əsrin müqaviləsi, 1994-2022 Faktlar, sənədlər və rəqəmlər toplusu, Bakı, TEAS Press Nəşriyyat evi, 2023.

Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: "Turxan" NPB, 2016.

Xəlilova X., Heydər Əliyev və insan kapitalının formalaşması dövlətin siyasətinin əsas istiqaməti kimi, "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş respublika elmi-praktiki konfransın materialları, Bakı, UNEC 2021, s.440.

Qasımov E., Neft strategiyası Azərbaycanın inkişafının təməl daşıdır. "Respublika" qəzeti, 1 aprel 2014, № 063 (4936).

Mehdiyev Ə. "Əsrin müqaviləsi": Azərbaycan neft strategiyasının təməl daşı. Bakı, "Turxan" NPB, 2014.

Vəliyeva K. "Azərbaycanın neft strategiyası və onun xarici ticarət əlaqələrinə təsiri" mövzusunda magistr dissertasiyası, Bakı, 2016, s.99.

***İnternet resursları***

https://xalqqazeti.az/az/iqtisadiyyat/160491-olkemizin-valyuta-ehtiyatlari-ilde-faiz Bayramov B, "Xalq qəzeti, Ölkəmizin valyuta ehtiyatları 1 ildə 17 faiz artıb

https://www.yeniazerbaycan.com/Gundem_e7609_az.html

https://e-qanun.az/framework/15399

https://idp.gov.az/az/content/8/parent/21

https://azerbaijan.az/related-information/276

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Silahl%C4%B1_Q%C3%BCvv%C9%99l%C9%99ri

## РЕЗЮМЕ

***Эльман НОВРУЗОВ***

***Роль «Контракта века» в социокультурном и экономическом развитии Азербайджана***

***Ключевые слова:*** *контракт века, нефть, развитие, инвестиции, Гейдар Алиев*

Когда Азербайджан, древняя нефтяная страна, восстановил свою независимость после распада Советского Союза, он не смог использовать свои нефтяные ресурсы на необходимом уровне, поскольку большинство нефтяных скважин были пусты или находились в поврежденном состоянии. В то же время, как и все советские республики, Азербайджан, переживающий экономический спад, не имеет необходимых возможностей для добычи своей нефти. В таких сложных условиях для Азербайджана единственным выходом было развитие нефтяных месторождений страны путем привлечения иностранных инвестиций и создание условий для добычи нефти и ее доставки на внешний рынок. Но привлечь инвестиции в новую независимую страну также было сложно. В результате дальновидной политики общенационального лидера Гейдара Алиева Азербайджан смог убедить крупные нефтяные компании инвестировать в нефтяную промышленность Азербайджана. Наконец, в этом направлении был подписан «Контракт века». «Договор века», подписанный Азербайджаном с зарубежными странами 20 сентября, проложил путь

к великому социально-культурному и экономическому развитию, создав условия для использования страной своих ресурсов. После «Контракта века» пришедшие в страну нефтяные деньги были направлены в различные сферы, созданы условия для открытия новых рабочих мест, реализации различных инфраструктурных проектов, повышения благосостояния населения и снижения уровня бедности. В то же время доходы от нефти сыграли исключительную роль в формирование армии страны, увеличении расходов на оборону и, наконец, возвращении оккупированных территорий страны. В то же время восстановить освобожденные от оккупации территории было бы непросто, если бы не нефтяные доходы, поступающие в страну по «Контракту века». Одним словом, «Контракт века» создал условия для решения великих проблем Азербайджана и заложил основу для всестороннего развития нашей страны.

## ABSTRACT

***Elman NOVRUZOV***

***The role of the "Contract of the Century" in the socio-cultural and economic development of Azerbaijan***

***Keywords:*** *contract of the century, oil, development, investment, Heydar Aliyev*

When Azerbaijan, an ancient oil country, regained its independence with the collapse of the Soviet Union, most of its oil wells were empty or in a state of disrepair, so it could not use its oil resources to the necessary extent. At the same time, Azerbaijan, which was experiencing economic decline like all Soviet republics, did not have the necessary opportunities to extract its own oil. In such difficult circumstances, the only way for Azerbaijan was to attract foreign investment to develop oil fields in the country and create conditions for extracting oil, as well as delivering it to foreign markets. However, it was also difficult to attract investment to the newly independent country. As a result of the far-sighted policy of the national leader Heydar Aliyev, Azerbaijan was able to convince major oil companies to invest in the Azerbaijani oil industry. Finally, the “Contract of the Century” was signed in this direction. The "Contract of the Century" signed by Azerbaijan with foreign countries on September 20 paved the way for great socio-cultural and economic development by creating conditions for the country to use its resources. After the "Contract of the Century", the oil money that came to the country was directed to various fields, created conditions for opening new jobs, implementing various infrastructure projects, improving the welfare of the population and reducing the level of poverty. At the same time, oil revenues played an exceptional role in building the country's army, increasing defense costs, and finally returning the occupied territories of the country. At the same time, without the oil revenues coming to the country from the "Contract of the Century", the restoration of the liberated territories would not have been easy. In short, the "Contract of the Century" created conditions for solving Azerbaijan's major problems and laid the foundation for the comprehensive development of our country.